# “İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ” QSC

**31 dekabr 2023-cü il tarixinə**
**Maliyyə Hesabatları**

Baltic Caspian Audit LLC
*Member Firm of Crowe Global*

OSKAR Business Center, 3rd floor
Tbilisi avenue, block 3001
Baku, AZ1000, Azerbaijan
Tel: +994 (55) 200 20 77
www.crowe.com/az/balticcaspian

# MÜSTƏQİL AUDİTORUN HESABATI

"İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ" Qapalı Səhmdar Cəmiyyətinin Təsisçilərinə və İdarə Heyətinə:

***Rəy***

Biz "İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ" QSC-nin (bundan sonra "Şirkət") 31 dekabr 2023-cü il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabatdan, həmin tarixdə başa çatan il üzrə mənfəət və ya zərər haqqında hesabatdan, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu prinsipləri və digər izahedici qeydlərin icmalından ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Bizim rəyimizcə, əlavə edilən maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından Şirkətin 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (bundan sonra "MHBS") uyğun olaraq düzgün əks etdirir.

***Rəy üçün əsas***

Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz hesabatımızın "Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti" bölməsində əks olunur. Biz Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının dərc etdiyi Peşəkar Mühasiblərin Etika Məcəlləsinə uyğun olaraq Şirkətdən asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk. Biz Etika Məcəlləsinə uyğun olaraq, etika ilə bağlı digər öhdəliklərimizi yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

***Maliyyə hesabatlarına görə rəhbərliyin və korporativ idarəetmə üzrə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti***

Rəhbərlik hazırkı maliyyə hesabatlarının MHBS-na uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsi, eləcə də saxtakarlıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik Şirkəti ləğv etmək və ya fəaliyyətini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fəaliyyətin fasiləsizliyinə dair məlumatların açıqlanmasına və fəaliyyətin fasiləsizliyi prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Korporativ idarəetmə üzrə cavabdeh olan səlahiyyətli şəxslər Şirkətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

*Baltic Caspian Audit LLC is a member of Crowe Global, a Swiss verein. Each member firm of Crowe Global is a separate and independent legal entity. Baltic Caspian Audit LLC is not responsible or liable for any acts or omissions of Crowe Global or any other member of Crowe Global and specifically disclaim any and all responsibility or liability for acts or omissions of Crowe Global or any other Crowe Global member. © 2024 Baltic Caspian Audit*

***Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti***

Bizim məqsədimiz bütövlükdə maliyyə hesabatlarında saxtakarlıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kifayət qədər əminlik əldə etmək və rəyimizin daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik əminliyin yüksək səviyyəsidir, lakin Beynəlxalq Audit Standartlarına uyğun olaraq auditin aparılması zamanı mövcud olan bütün əhəmiyyətli təhriflərin həmişə aşkar olunacağına zəmanət vermir. Təhriflər saxtakarlıq və ya səhv nəticəsində yarana bilər və fərdi və ya məcmu olaraq istifadəçilərin maliyyə hesabatları əsasında qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmək ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

Beynəlxalq Audit Standartlarına uyğun aparılan auditin bir hissəsi olaraq, biz audit zamanı peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında saxtakarlıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olması riskini müəyyən edir və qiymətləndirir, həmin risklərə qarşı audit prosedurlarını hazırlayır və həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Saxtakarlıq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhvlər nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən daha yüksəkdir, çünki saxtakarlığa gizli sövdələşmə, fırıldaqçılıq, məlumatların bilərəkdən göstərilməməsi, yanlış təqdimat və ya daxili nəzarət sistemində sui-istifadə halları daxil ola bilər.
- Şirkətin daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarını işləyib hazırlamaq üçün daxili nəzarət sistemi üzrə məlumat əldə edirik.
- Rəhbərlik tərəfindən istifadə edilən uçot siyasətlərinin uyğunluğunu, habelə uçot təxminləri və müvafiq açıqlamaların münasibliyini qiymətləndiririk.
- Fəaliyyətin fasiləsizliyi prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Şirkətin fasiləsiz fəaliyyət göstərmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və şəraitlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair qənaətə gəlirik. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu qənaətinə gəldikdə, auditor rəyimizdə maliyyə hesabatlarındakı müvafiq məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması yetərli olmadıqda, rəyimizdə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və şəraitlər Şirkətin fasiləsiz fəaliyyətini dayandırmasına səbəb ola bilər.
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında düzgün təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz korporativ idarəetmə üzrə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar barədə məlumat veririk.

Baltik Kaspian Audit MMC

Samir Əsədullayev
Direktor, İcazəli auditor

"Baltik Kaspian AUDIT" MMC "Baltic Caspian AUDIT" LLC AUDIT

15 fevral 2024-cü il
Bakı, Azərbaycan Respublikası

Rəy № TfPf0PKMe1

*Baltic Caspian Audit LLC is a member of Crowe Global, a Swiss verein. Each member firm of Crowe Global is a separate and independent legal entity. Baltic Caspian Audit LLC is not responsible or liable for any acts or omissions of Crowe Global or any other member of Crowe Global and specifically disclaim any and all responsibility or liability for acts or omissions of Crowe Global or any other Crowe Global member. © 2024 Baltic Caspian Audit*

"İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ" QSC

## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2023-CÜ İL TARİXİNƏ
*(Azərbaycan Manatı ilə)*

| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| **Cari aktivlər** | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 15,671,719 | 9,464,027 |
| Digər aktivlər | 137,609 | 56,867 |
| **Cəmi cari aktivlər** | **15,809,328** | **9,520,894** |
| **Uzun müddətli aktivlər** | | |
| Əsas vəsaitlər | 8,446,351 | 8,310,068 |
| Qeyri-maddi aktivlər | 3,922 | 828 |
| İstifadə hüququ olan aktivlər | 8,834,098 | 8,491,218 |
| Təsisçilərlə hesablaşmalar | 623,400 | 554,350 |
| İnvestisiya qiymətli kağızları | 288,600 | 288,600 |
| Asılı müəssisələrə investisiyalar | 62,000 | 62,000 |
| Təxirə salınmış mənfəət vergisi aktivi | 31,559 | 23,078 |
| **Cəmi uzun müddətli aktivlər** | **18,289,930** | **17,730,142** |
| **CƏMİ AKTİVLƏR** | **34,099,258** | **27,251,036** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | |
| ÖHDƏLİKLƏR: | | |
| **Cari öhdəliklər** | | |
| Müştərilər üzrə kreditor borclar | 10,696,239 | 7,743,097 |
| Cari mənfəət vergisi öhdəliyi | 666,384 | 167,525 |
| İstifadə hüququ olan aktivlərlə bağlı öhdəliklər | 1,351,039 | 1,161,893 |
| Buraxılmış borc qiymətli kağızları | - | 4,420,000 |
| Digər öhdəliklər | 429,371 | 15,842 |
| **Cəmi cari öhdəliklər** | **13,143,033** | **13,508,357** |
| **Uzun müddətli öhdəliklər** | | |
| Buraxılmış borc qiymətli kağızları | 6,432,800 | 1,603,100 |
| İstifadə hüququ olan aktivlərlə bağlı öhdəliklər | 7,781,827 | 7,397,974 |
| **Cəmi uzun müddətli öhdəliklər** | **14,214,627** | **9,001,074** |
| CƏMİ ÖHDƏLİKLƏR | **27,357,660** | **22,509,431** |
| KAPİTAL: | | |
| Nizamnamə kapitalı | 3,000,400 | 2,838,840 |
| Bölüşdürülməmiş mənfəət | 3,741,198 | 1,902,765 |
| CƏMİ KAPİTAL | **6,741,598** | **4,741,605** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | **34,099,258** | **27,251,036** |

Azərbaycan Respublikası Qapalı Səhmdar Cəmiyyət INVEST AZ İnvestisiya Şirkəti Azerbaijan Republic Closed Joint-Stock Company

**Şəhriyar Qurbanzadə**
**Direktor**

15 fevral 2024-cü il

**Şaban Qasımov**
**Baş mühasib**

15 fevral 2024-cü il

## “İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ” QSC

### MƏNFƏƏT VƏ YA ZƏRƏR HAQQINDA HESABAT
### 31 DEKABR 2023-CÜ İL TARİXİNDƏ BAŞA ÇATAN İL ÜZRƏ
*(Azərbaycan Manatı ilə)*

| | 31 dekabr 2023-cü ildə başa çatan il | 31 dekabr 2022-ci ildə başa çatan il |
|---|---|---|
| **GƏLİRLƏR** | | |
| Marja ticarətindən xalis gəlir | 12,088,738 | 4,672,355 |
| Broker xidmətlərindən və digər komissiya gəlirləri | 577,345 | 242,179 |
| Tədris xidmətləri üzrə gəlirlər | 66,351 | 27,906 |
| Dividend gəliri | 13,400 | 17,961 |
| **CƏMİ GƏLİRLƏR** | **12,745,834** | **4,960,401** |
| **XƏRCLƏR** | | |
| Haqq və komissiya xərcləri | (564,031) | (247,379) |
| İnzibati və digər əməliyyat xərcləri | (8,338,967) | (3,473,938) |
| Faiz xərcləri | (939,232) | (387,147) |
| **ƏMƏLİYYAT ÜZRƏ MƏNFƏƏT** | **2,903,604** | **851,937** |
| Məzənnə fərqindən xalis gəlir | 61,166 | 9,957 |
| Digər gəlir | 80,000 | 1,168,572 |
| **VERGİDƏN ƏVVƏL MƏNFƏƏT** | **3,044,770** | **2,030,466** |
| Mənfəət vergisi xərci | (651,987) | (441,229) |
| **İL ÜZRƏ XALİS MƏNFƏƏT** | **2,392,783** | **1,589,237** |

Azərbaycan Respublikası
Qapalı Səhmdar Cəmiyyət
INVEST AZ
İnvestisiya Şirkəti
Azerbaijan Republic
Closed Joint-Stock Company

**Şəhriyar Qurbanzadə**
**Direktor**

15 fevral 2024-cü il

**Şaban Qasımov**
**Baş mühasib**

15 fevral 2024-cü il

## "İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ" QSC

### KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
### 31 DEKABR 2023-CÜ İL TARİXİNDƏ BAŞA ÇATAN İL ÜZRƏ
*(Azərbaycan Manatı ilə)*

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi |
|---|---|---|---|
| **1 yanvar 2022-ci il tarixinə qalıq** | **2,254,590** | **1,587,516** | **3,842,106** |
| Bölüşdürülməmiş mənfəətin nizamnamə kapitalına yönəldilməsi | 584,250 | (584,250) | - |
| Elan edilmiş dividendlər | - | (689,738) | (689,738) |
| İl üzrə xalis mənfəət | - | 1,589,237 | 1,589,237 |
| **31 dekabr 2022-ci il tarixinə qalıq** | **2,838,840** | **1,902,765** | **4,741,605** |
| Nizamnamə kapitalının əlavə səhmlərin buraxılması yolu ilə artırılması | 161,560 | - | 161,560 |
| Elan edilmiş dividendlər | - | (554,350) | (554,350) |
| İl üzrə xalis mənfəət | - | 2,392,783 | 2,392,783 |
| **31 dekabr 2023-cü il tarixinə qalıq** | **3,000,400** | **3,741,198** | **6,741,598** |

Azərbaycan Respublikası Qapalı Səhmdar Cəmiyyət INVEST İnvestisiya Şirkəti Azerbaijan Republic Closed Joint-Stock Company

**Şəhriyar Qurbanzadə**
**Direktor**

15 fevral 2024-cü il

**Şaban Qasımov**
**Baş mühasib**

15 fevral 2024-cü il

## "İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ" QSC

### PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
### 31 DEKABR 2023-CÜ İL TARİXİNDƏ BAŞA ÇATAN İL ÜZRƏ
*(Azərbaycan Manatı ilə)*

| | 31 dekabr 2023-cü ildə başa çatan il | 31 dekabr 2022-ci ildə başa çatan il |
|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ:** | | |
| Alınmış komissiyalar | 577,345 | 242,179 |
| Ödənilmiş komissiyalar | (564,031) | (247,379) |
| Marja ticarətindən xalis gəlir | 12,088,738 | 4,672,355 |
| Xarici valyuta ilə dilinq əməliyyatlarından gəlir | 27,031 | 18,041 |
| Tədris xidmətləri üzrə gəlirlər | 66,351 | 27,906 |
| Digər gəlirlər | - | 15,217 |
| İşçilər üzrə ödənilmiş xərclər | (2,581,466) | (1,022,959) |
| Ödənilmiş inzibati və digər əməliyyat xərcləri | (4,300,169) | (2,216,090) |
| Ödənilmiş mənfəət vergisi | (161,609) | (382,273) |
| Ödənilmiş faizlər | (939,232) | (387,147) |
| Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti | **4,212,958** | **719,850** |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklər** | | |
| Digər aktivlərdə xalis (artım)/azalma | (80,742) | 3,510,429 |
| Müştərilər üzrə kreditor borclarında xalis artım | 2,953,142 | 1,869,098 |
| Digər öhdəliklərdə xalis artım | 413,529 | 11,233 |
| Əməliyyat fəaliyyəti üzrə daxil olmuş xalis pul vəsaitləri | **7,498,887** | **6,110,610** |
| **İNVESTİSİYA FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ:** | | |
| Əsas vəsaitlərin alınması | (570,524) | (7,030,989) |
| Qeyri-maddi aktivlərin alınması | (3,673) | - |
| Əsas vəsaitlərin satışından daxilolmalar | 80,000 | - |
| Alınmış dividendlər | 13,400 | 17,961 |
| İnvestisiya fəaliyyəti üzrə istifadə edilmiş xalis pul vəsaitləri | **(480,797)** | **(7,013,028)** |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ** | | |
| Nizamnamə kapitalının artırılması | 161,560 | - |
| Təsisçilərlə hesablaşmalarda xalis dəyişiklik | (623,400) | (554,350) |
| İcarə öhdəliklərinin ödənilməsi - əsas məbləğ | (792,393) | (7,165) |
| Buraxılmış borc qiymətli kağızlarında xalis dəyişiklik | 409,700 | 1,343,000 |
| Maliyyələşdirmə fəaliyyəti üzrə (istifadə edilmiş)/daxil olmuş xalis pul vəsaitləri | **(844,533)** | **781,485** |
| Pul vəsaitləri və onların ekvivalentlərində xalis artım/(azalma) | **6,173,557** | **(120,933)** |
| **Pul vəsaitləri və onların ekvivalentləri, *ilin əvvəlinə*** | **9,464,027** | **9,593,044** |
| Məzənnə fərqlərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | 34,135 | (8,084) |
| **Pul vəsaitləri və onların ekvivalentləri, *ilin sonuna*** | **15,671,719** | **9,464,027** |

Azərbaycan Respublikası Qapalı Səhmdar Cəmiyyəti
INVEST İnvestisiya Şirkəti
Azerbaijan Republic Closed Joint-Stock Company

**Şəhriyar Qurbanzadə**
**Direktor**

15 fevral 2024-cü il

**Şaban Qasımov**
**Baş mühasib**

15 fevral 2024-cü il